# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ

## MƏDƏNİYYƏT KOMİTƏSİ



AZ1152, Bakı, Parlament prospekti, 1. www.meclis.gov.az


№ 03/16-856 26 aprel 2021-ci il.

**Azərbaycan Universitetinin rektoru**
**Səadət xanım Əliyevaya**

**Hörmətli Səadət xanım,**

Müstəqil Azərbaycan Respublikasında ilk özəl ali təhsil ocağı olan Azərbaycan Universitetinin yaradılmasının 30-cu ildönümü münasibəti ilə Sizi, Sizin şəxsinizdə universitetinizin professor-müəllim heyətini, məzunlarınızı, tələbələrinizi, universitetlə bu və ya digər şəkildə bağlı olmuş hər kəsi təbrik edir, uğurlar diləyirəm!

Universitetiniz 2006-cı ildən başlayaraq Bolonya Bəyannaməsinin tələbləri əsasında fəaliyyət göstərir. Tədrisin təşkili, tələbələrin qiymətləndirilməsi Avropa Kredit Transfer Sisteminin tələblərinə uyğunlaşdırılıb.

Tədrisin Azərbaycan və ingilis dillərində təşkil olunduğu universitetinizdə ali təhsilin bütün səviyyələri üzrə kadr hazırlığı aparılır. 2019-cu ildə ISO 9001:2015 "Keyfiyyət İdarəetmə Sistemi" sertifikatını əldə edən Azərbaycan Universitetində tədris və idarəetmə beynəlxalq standartlar əsasında təşkil olunur.

Universitetiniz kompüter biliklərini beynəlxalq səviyyədə təsdiq edən ECDL (European Computer Driving Licence) sertifikat proqramının Azərbaycandakı rəsmi Akkreditasiya Olunmuş Test Mərkəzi kimi fəaliyyət göstərməklə yanaşı, ingilis dili biliklərini beynəlxalq səviyyədə təsdiq edən PTE (Pearson Test of English) proqramının imtahan alt mərkəzi statusunu da daşıyır.

Bir çox məzununuz dövlət və ictimai işlərdə, özəl sektorda uğurla çalışmaqdadır.

Sizi Azərbaycan Universitetinin 30 illik yubileyi və bütün uğurlarınız münasibəti ilə təbrik edir, ən xoş diləklərimi yetirirəm!

*Hörmətlə,*
***Komitə sədri:*** **Qənirə PAŞAYEVA**